# Bakıda I Gənc Kardioloqlar Forumu olub







**Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) təşkilatçılığı ilə Bakıda aprelin 10-dan 12-dək I Gənc Kardioloqlar Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət qurumlarının rəhbər şəxsləri, deputatlar, tanınmış elm xadimləri, Azərbaycan Tibb Universitetinin tələbələri, "ETKİ könüllüləri" və Azərbaycanın elm və tibb müəssisələrinin, eləcə də peşəkar cəmiyyətlərin nümayəndələri iştirak ediblər.

I Gənc Kardioloqlar Forumunun rəsmi açılış mərasimində Elmi-Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) direktoru və forumun sədri professor Gülnaz Dadaşova tədbirin vacibliyini vurğulayıb: "Bu forum kardiologiya sahəsində həyata keçirilən islahatların ilkin nəticələrini və perspektivlərini dərindən analiz etmək, eləcə də geniş, çoxtərəfli müzakirələr aparmaq üçün əhəmiyyətli bir platformadır. Əminəm ki, forumda aparılan səmərəli müzakirələr və fikir mübadilələri kardiologiyanın növbəti dövründəki inkişafına əhəmiyyətli töhfə verəcək".

Çıxış edən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev bildirib ki, zəngin proqram çərçivəsində maraqlı panellər və kurslar keçirilir və bu da öz növbəsində kardiologiya sahəsinin inkişafına müsbət təsir göstərir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli forumun kardiologiya sahəsində gənc mütəxəssisləri bir araya gətirərək, birgə tədqiqat imkanlarını nəzərdən keçirmək və ürək-damar xəstəliklərinin müalicəsində əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətini artırmaq baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva çıxışında forumun proqramına yeni tibbi texnologiyaların və fundamental tibbin nailiyyətlərinin praktiki aspektlərinə həsr olunmuş iclasların, orijinal tədqiqat nəticələrinin və real klinik təcrübədən götürülmüş hallar əsasında keçirilən klinik debatların daxil olduğunu bildirib.

Qeyd edək ki, üç gün davam edən foruma 600-dən artıq yerli mütəxəssis qatılıb. I Gənc Kardioloqlar Forumu Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunub və 46 DTT kredit balı ilə qiymətləndirilib.

/zərbaycan. - 2025.- 13 aprel (№ 72).- S.7.